Azadlıq Radiosu

DÜNYA

# BMT-dən xəbərdarlıq: Süni intellekt bəşəriyyətin mövcudluğuna təhlükə yarada bilər

indicə




Süni intellekt hansı peşələri yox edəcək?

BMT-nin insan hüquqları üzrə ali komissarı **Volker Türk** sentyabrın 7-də xəbərdarlıq edib ki, süni intellekt bəşəriyyət üçün təhlükə yaradacaq qədər güclənə bilər. O, yaxın günlərdə şirkətləri bu riskləri azaltmağa çağıracağını bildirib.

**"Bu sənayenin ekspertlərinin qabaqcıl süni intellektin bəşəriyyətin mövcudluğuna risk yarada biləcəyi ilə bağlı narahatlığını bölüşürəm"**, – Türk Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasındakı geniş çıxışında deyib. Gələn aydan onun ikinci səlahiyyət müddəti başlayır.

"Bu gün buradan çağırış edirəm: çox gec olmadan süni intellektin təhlükəsizliyinə dair möhkəm zəmanətlərin yaradılması üçün bütün qüvvələr səfərbər olunmalıdır", – o əlavə edib.

Türk ad çəkmədən xəbərdarlıq edib ki, kiçik bir qrup insan süni intellekt texnologiyaları üzərində, demək olar, qeyri-məhdud hakimiyyətə malikdir.

**"Ən azından, süni intellekt sistemlərinin yerləşdiyi və onların təchizat zəncirlərində yer alan ölkələr razılaşdırılmış qırmızı xətlər üzrə ortaq məxrəcə gəlməlidirlər"**, – o bildirib.

Süni intellekt sahəsində aparıcı şirkətlər "Meta", "Antropik", "OpenAI" və "Google"dur.

Bundan əvvəl süni intellekt sahəsinin rəhbər şəxsləri, o cümlədən “OpenAI” şirkətinin baş icraçı direktoru **Sem Altman** bu texnologiyanın bəşəriyyətin məhvinə yol aça biləcəyi barədə xəbərdarlıq etmişdilər.

BMT riskləri azaltmaq üçün vahid qaydaların hazırlanmasına çağırıb. İyulda süni intellektin idarə edilməsinə həsr olunmuş ilk qlobal toplantı keçirilib.

## Buna da bax:

ABŞ 'Anthropic'in qabaqcıl süni intellekt modellərini dondurdu

Süni intellekt susuz qoyanda: Kaliforniya şəhərində data mərkəzləri səsvermə ilə qadağan edildi

Papa Leo dünyanı süni intellekt sahəsində yavaşlamağa çağırıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur